

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 134 (21.286)

*10 iyul 2015-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Baş naziri Matteo Renzi ilə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüşdə Baş nazir Matteo Renzi ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini bildirdi, qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi.

Azərbaycan Prezidenti İlham Əliyev ölkələrimiz arasında dostluq münasibətlərinin mövcud olduğunu, ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğuladı.

* * *

İyulun 9-da "Milan Expo 2015" Ümumdünya sərgisindəki Azərbaycan pavilyonunda "Milli gün" təşkil olunub.

"Milli gün" çərçivəsində Azərbaycan pavilyonunun rəsmi təqdimat mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə iştirak ediblər.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində birinci Avropa Oyunlarının bürünc mükafatçısı ilə görüş keçirilmişdir





İyulun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində birinci Avropa Oyunlarının bürünc mükafatçısı ilə görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov məlumat verərək demişdir ki, muxtar respublikada idmanın maddi-texniki və təşkilati-hüquqi bazası xeyli möhkəmləndirilmişdir. Yaradılan şəraitin nəticəsidir ki, hazırda muxtar respublikada 38 min 586 nəfər bədən tərbiyəsi və idmanla məşğul olur. Muxtar respublika idmançıları 2015-ci ilin ötən dövrü ərzində Azərbaycan üzrə birinciliklərdə 30, dünya birinciliyində 8, Beynəlxalq turnirlərdə 12 medal qazanmışlar. İdman sahəsində əldə edilən ən böyük uğur isə 12-28 iyun tarixlərində Bakı şəhərində keçirilmiş birinci Avropa Oyunlarında muxtar respublika boks məktəbinin yetirməsi, Avropa çempionu Tayfur Əliyevin bürünc mükafata layiq görülməsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ölkəmizdə digər sahələrlə yanaşı, idmanın inkişafına da qayğı göstərildiyini bildirərək demişdir: Azərbaycanda idman hərəkatının əsası ötən əsrin 70-ci illərində qoyulmuşdur. Həmin dövrdə ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə hakimiyyətə gəlməsi ilə bütün sahələrlə yanaşı, idman da inkişaf etdirildi. Ölkəmizin şəhər və rayonlarında idman məktəbləri yaradıldı, stadionlar tikildi, şahmat məktəbləri istifadəyə verildi.

Ali Məclisin Sədri demişdir: Bu gün Azərbaycan müstəqil dövlətdir. İdmanın kütləviliyinin təmin olunması və gənclərin sağlam böyüməsi müstəqil Azərbaycanın dövlət siyasətinin tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir, idman infrastrukturu ilbəil müasirləşdirilir. Artıq muxtar respublikada gənc idmançılar nəsli yetişir. Naxçıvan beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Bütün bunlar da idmançıların təcrübə qazanması və peşəkar idmançı kimi formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Digər bir tərəfdən yaradılan şərait gənclərin asudə vaxtının səmərəli təşkilinə və onların idman federasiyalarına cəlbinə səbəb olmuşdur. Bu gün gənc idmançılara qayğı göstərilir, onların adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na salınır. Gənc boksçu Tayfur Əliyevin də adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na salınmışdır.

Ali Məclisin Sədri birinci Avropa Oyunlarının Azərbaycanda yüksək səviyyədə keçirilməsini ölkəmizdəki mövcud sabitliyin və ümummilli liderimizin yolunun uğurla davam etdirilməsinin nəticəsi kimi dəyərləndirmişdir. Qeyd olunmuşdur ki, şəffaf və ədalətli mübarizə şəraitində keçən yarışlarda ölkəmiz Avropa Oyunlarının Azərbaycan standartını yaratdı. Azərbaycanın birinci Avropa Oyunlarında 56 medal qazanaraq ikinci yeri tutması tarixi nailiyyətdir. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idmanın inkişafı sahəsində həyata keçirdiyi tədbirlərin nəticəsidir. Ölkə Prezidentinin birinci Avropa Oyunlarında qazanılan nailiyyətlərə görə idmançıları və onların məşqçilərini dövlət mükafatları ilə təltif etməsi də bu sahəyə göstərilən diqqətin daha bir ifadəsidir. Birinci Avropa Oyunlarında Naxçıvan Muxtar Respublikasından olan idmançı da iştirak edirdi. Naxçıvan boks məktəbinin yetirməsi, gənc boksçu Tayfur Əliyev "Bakı-2015" birinci Avropa Oyunlarının bürünc mükafatına layiq görülməklə ona göstərilən etimadı doğrultmuşdur.

Ali Məclisin Sədri birinci Avropa Oyunlarında bürünc medal qazanaraq ölkəmizin idman şərəfini layiqincə qoruduğuna görə gənc boksçu Tayfur Əliyevə təşəkkür etmiş, ona gələcək yarışlarda uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri birinci Avropa Oyunlarındakı nailiyyətlərinə görə Tayfur Əliyevə "Naxçıvan Muxtar Respublikasının 85 illiyi" yubiley qızıl medalını, onun məşqçisi Məmmədəli Eyvazova qızıl qol saatı və muxtar respublikada boks idmanının inkişafındakı fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədri Məhərrəm Talıbova Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanını təqdim etmişdir.

Birinci Avropa Oyunlarının bürünc mükafatçısı Tayfur Əliyev Naxçıvanda idmanın inkişafı sahəsində həyata keçirilən tədbirlərdən danışmış, bu işlərin beynəlxalq yarışlarda Azərbaycanın idman şərəfini qoruyan gənc idmançıların yetişməsinə səbəb olduğunu bildirmişdir. Tayfur Əliyev idmanın inkişafına göstərdiyi diqqət və qayğıya görə muxtar respublika idmançıları və gəncləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, bundan sonra da yüksək nailiyyətlər qazanmaqla göstərilən etimadı doğruldacağına söz vermişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Əhaliyə keyfiyyətli rabitə xidməti göstərilir

Muxtar respublikada rabitə sisteminin inkişafı diqqət mərkəzində saxlanılır, yeni texnologiyalar tətbiq olunmaqla xidmətin səviyyəsi yüksəldilir. Bu ilin iyun ayı da bu baxımdan yaddaqalan olub. Yaşayış məntəqələrinin rabitə və informasiya infrastrukturunun müasirləşdirilməsi istiqamətində işlər ötən ay da davam etdirilmiş, Naxçıvan-Nəhəcir avtomat telefon stansiyaları arasındakı mövcud arabağlantı əlaqəsi fiber-optik kabel üzərinə köçürülmüş, Ordubad rayonunun Şəhriyar qəsəbəsi, Kəngərli rayonunun Qıvraq qəsəbəsi və Babək rayonunun Məmmədrza Dizə kənd avtomat telefon stansiyalarında 48 portluq yeni nəsil rabitə avadanlıqları quraşdırılmışdır. Bundan başqa Şərur rayonunun Kərimbəyli-Axaməd kəndləri arasında 2500 metr məsafədə yeraltı fiber-optik kabel xəttinin tikintisi başa çatdırılmış, 288 ədəd yeni telefon nömrəsi istismara verilmişdir. "Evədək optika" layihəsi üzrə isə 9 fərdi mənzil optik kabel xətti ilə təmin edilmişdir. Ümumiyyətlə, bu ilin ilk 6 ayı ərzində muxtar respublika ərazisində 59 min 192 metr məsafədə yeraltı fiber-optik kabel xətti çəkilmişdir.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi HUAWEİ şirkətinin mütəxəssisləri ilə birlikdə Naxtel 4G LTE şəbəkəsinin qurulması işinə başlamışdır. Bu da yaxın gələcəkdə "Naxtel" abunəçiləri üçün yüksəkkeyfiyyətli rabitə və daha sürətli internetdən istifadə imkanları yaradacaqdır. Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində kompüter kursları iyun ayında da davam etdirilmiş, 2 ümumi və 2 fərdi qrup yaradılaraq 20 dinləyici kurslara cəlb olunmuşdur. Görülən işlər muxtar respublikada internet istifadəçilərinin sayının artmasına da öz müsbət təsirini göstərir. Təkcə iyun ayında 450 abunəçi genişzolaqlı internetlə təmin olunmuşdur.

Yeni texnologiyaların tətbiqi vasitəsilə dövlət orqanlarının elektron xidmətlərinin genişləndirilməsi işi də diqqət mərkəzində saxlanılır. Bu işlərin davamı olaraq ötən ay Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin göstərdiyi xidmətlər tam avtomatlaşdırılmış və "Elektron hökumət" portalına inteqrasiya olunmuşdur.

Rabitə xidmətlərinin inkişafı poçt şəbəkəsinin də genişlənməsinə və müasir tələblərə uyğun fəaliyyətinə stimul verir. Ötən dövrdə Naxçıvan şəhərindəki 9 poçt məntəqəsində smart sayğacların yüklənməsi üçün 10 kompüter dəsti quraşdırılmış və şəbəkə üzərindən serverə qoşulmuş, poçt əməliyyatçılarına bu yeni texnoloji sistemin işçi proqramı öyrədilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın icrası istiqamətində 10 sayda buklet və 15 min ədəd poçt markası hazırlanaraq tədavülə buraxılmışdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

İcmal

# Ötən ay növbəti dəfə bütün sahələrdə əldə olunan möhtəşəm nailiyyətlərin şahidi olduq

## *Bütün bunlar Milli Qurtuluş Gününün bəhrələri, ulu öndərin yolunun uğurla davam etdirilməsinin nəticəsidir*



***Ötən ay ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında 15 İyun – Milli Qurtuluş Günü böyük təntənə ilə qeyd olundu. Milli Qurtuluş Günü ölkəmizin bəlalardan xilas olduğu, vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulduğu, milli dövlətçiliyimizin gələcəyinin qorunduğu gün kimi daim xatırlanır.***

Azərbaycanın xilası məhz ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ilə mümkün oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə qayıdışı şərəfli xilaskarlıq missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edir".***

Tarixinin çiçəklənmə, intibah dövrünü yaşayan Naxçıvanın 20 illik inkişaf tarixi Heydər Əliyev yolunun uğurla davam etdirilməsi nəticəsində şərəfli salnaməyə çevrilib.

Ümummilli lider mədəniyyətin, incəsənətin inkişafına da xüsusi diqqət yetirir, sənət adamlarına böyük qayğı və hörmətlə yanaşır, onlara, sözün əsl mənasında, hamilik edirdi. ***"Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır, orada çalışanlar fədakardırlar"***, – deyən ulu öndər xalqımızın zəngin yaradıcılıq ənənələrinə malik olan teatr sənətinə yüksək qiymət verir, onun inkişafı üçün əlindən gələni əsirgəmirdi. Heydər Əliyev yolunun davamçıları son 20 ildə muxtar respublikada həm də teatr sənətinin davamlı inkişafını təmin etdilər. Ötən müddət ərzində teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirildi. Bu gün Naxçıvan teatrları dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə xidmət edən yüksək sənət əsərlərini səhnələşdirir, milli dəyərlərin qorunması və gələcək nəsillərə çatdırılması, eləcə də tariximizin yaşadılması sahəsində şərəfli vəzifəni layiqincə yerinə yetirirlər. İyunun 15-də – Milli Qurtuluş Günündə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında İftixar Piriyevin "Qurtuluş dastanı" epik tarixi dramı əsasında hazırlanmış eyniadlı tamaşanın yüksək səviyyədə təqdim olunması da bunun bariz nümunəsidir.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşüb.

İyunun 15-də Naxçıvan şəhərindəki muxtar respublika stadionunda Milli Qurtuluş Günü münasibətilə bayram konserti təşkil olunmuşdu. Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də bayram konsertləri oldu, el şənlikləri keçirildi. Yüksək bayram əhval-ruhiyyəsində keçən bu tədbirlər naxçıvanlıların ölkəmizin xilaskarı ulu öndər Heydər Əliyevə sonsuz sevgisinin növbəti təzahürü idi.

Ümummilli lider ölkəmizə qonşu olan dövlətlərlə əlaqələrin inkişafına xüsusi diqqət yetirirdi. Bu mənada qədim tarixə malik olan Azərbaycan-İran münasibətlərinin uğurlu inkişafı da dahi şəxsiyyətin adı ilə bağlıdır. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın qonşu vilayətləri arasındakı səmərəli əməkdaşlıq bu əlaqələrə öz töhfəsini verir. İqtisadi-ticarət, kənd təsərrüfatı, enerji, təhsil və digər sahələrdə əlaqələrin mühüm əhəmiyyəti vardır. Son illər həyata keçirilən qarşılıqlı səfərlər isə ikitərəfli münasibətlərin inkişafı üçün geniş perspektivlər açıb. Bu sahədə görülən işlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadənin dəvəti ilə iyunun 9-da İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinə səfər edib.

Səfər çərçivəsində Ali Məclisin Sədri Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadə, Şərqi Azərbaycan Vilayətinin sərhəd qüvvələri komandiri Seyid Müctəba Musəvi ilə görüşüb, Təbriz Universitetinə və Təbriz Tibb Universitetinə gedərək hər iki ali təhsil müəssisəsinin tədris imkanları ilə maraqlanıb. Ali Məclis Sədrinin səfəri zamanı "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair Memorandum" imzalanıb. Ali Məclisin Sədri Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğuna gedib, konsulluğun əməkdaşları ilə görüşüb və onların iş şəraiti ilə maraqlanıb.

Tarixin bütün dövrlərində ölkələrin hərbi müdafiə sistemini möhkəmləndirməsi mühüm əhəmiyyət kəsb edib. İstənilən ordunun qüdrəti isə iki halda meydana çıxır. Birincisi, döyüşlərdə, ikincisi isə hərbi təlimlərdə. İyunun 10-da Əlahiddə Ümumqoşun Ordusunun gecə şəraitində taktiki təlimi keçirilib. Təlimə 600-dən çox şəxsi heyət, 110 döyüş və müxtəlif təyinatlı texnikalar, 25 reaktiv və artilleriya qurğusu, 2 döyüş vertolyotu, 4 zenit-raket qurğusu və 4 mühəndis texnikası cəlb olunub. Təlimin nəticəsi bir daha göstərdi ki, Əlahiddə Ümumqoşun Ordusunun şəxsi heyəti dağlarda müxtəlif gecə döyüş əməliyyatları həyata keçirməyə qadirdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hərbi təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayaraq deyib: ***"Ordunun döyüş qabiliyyətinin artırılmasında və hərbçilərin döyüşçü kimi yetişməsində təlimlərin mühüm rolu vardır. Keçirilən hər bir hərbi təlim şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması yolunda atılan növbəti addımdır. Bu gün torpaqlarımız işğal altındadır, ölkəmiz isə müharibə şəraitində yaşayır. Bu da ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin, xüsusilə hərbi təlimlərin mütəmadi keçirilməsini, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin yüksəldilməsini zəruri edir. Ordunun gücü xidmət edən şəxsi heyətin ruh yüksəkliyindən asılıdır. Bugünkü hərbi təlimdə iştirak edən əsgər və zabitlərin qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməsi də onların döyüş hazırlığı ilə yanaşı, həm də ruh yüksəkliyini və vətənpərvərliyini bir daha nümayiş etdirdi".***

Bu gün regionda və dünyada yaranmış ümumi vəziyyət ordu quruculuğu prosesini daim diqqət mərkəzində saxlamağı, dövlətçiliyə sədaqətli, mənəvi-psixoloji hazırlığa malik peşəkar hərbçi kadrların hazırlanmasına diqqətin artırılmasını tələb edir. Bu mənada Heydər Əliyev adına Hərbi Lisey respublika səviyyəsində xüsusilə seçilir. Muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə Hərbi Lisey qısa zamanda böyük inkişaf yolu keçib. Bu gün burada nümunəvi hərbi tədris şəhərciyi yaradılıb, kursantların təhsili, sağlamlığı və fiziki tərbiyəsi üçün lazım olan bütün tədbirlər görülüb. Hərbi Lisey ötən dövrdə tədris və tərbiyə sahəsində mühüm nailiyyətlər əldə edib. Bu gün fəxrlə deyə bilərik ki, təhsil ocağı qısa zaman ərzində Azərbaycan, hətta Cənubi Qafqaz regionu səviyyəsində çox böyük uğurlara imza atıb. İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının 2015-ci il buraxılışı münasibətilə keçirilən tədbirdə qeyd olunan faktlar da belə deməyə əsas verir.

Fəaliyyətə 56 kursantla başlayan lisey bu gün gəncləri öz ətrafında birləşdirən mötəbər hərbi tədris müəssisəsidir. Ötən dövrdə Hərbi Liseyi bitirən kursantlardan 2072-si ali hərbi məktəblərə qəbul olunub. Liseyin minə yaxın məzunu Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi xidmətlərini uğurla davam etdirir.

Bu gün enerji təhlükəsizliyinin tam təmin olunması qarşıda duran əsas vəzifələrdən biridir. 24 ildir, blokada vəziyyətində saxlanılan muxtar respublikamızda bu məsələ öz həllini tapıb. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin balansında olan 7 elektrik stansiyasından 6-sı son 20 ildə istismara verilib.

Muxtar respublikada bu istiqamətdə işlər davam etdirilir. İyunun 19-da müasir texniki imkanlara malik Kəngərli Rayon Elektrik Şəbəkəsinin inzibati binasının və "Qıvraq" yarımstansiyasının istifadəyə verilməsi münasibətilə keçirilən açılış tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu barədə danışaraq deyib: ***"...Bu gün muxtar respublikada istehsal olunan elektrik enerjisi daxili tələbatı ödəməklə yanaşı, həm də ixrac potensialı yaradır. Vaxtilə muxtar respublikada elektrik enerjisinin paylanması fasilələrlə həyata keçirilirdi. Lakin bu gün bütün yaşayış məntəqələri fasiləsiz elektrik enerjisi ilə təmin olunmuşdur. Muxtar respublikada il ərzində istehsal olunan elektrik enerjisinin çox hissəsi bərpa olunan enerji mənbələri, yəni su elektrik stansiyaları hesabına ödənilir. Bu da elektroenergetikanın inkişafı sahəsində qazanılan ən mühüm nailiyyətlərdən biridir. Hazırda yeni Günəş elektrik stansiyası qurulur. Bütün bunlar muxtar respublikada gələcək tələbat da nəzərə alınmaqla uzun müddət elektrik enerjisi təminatının daxili istehsal hesabına ödənilməsinə imkan verəcəkdir".***

Qıvraq qəsəbəsində elektrik enerjisinin verilişi vaxtilə ərazidəki nasos stansiyaları üçün qurulan yarımstansiya vasitəsilə həyata keçirilirdi. Bu yarımstansiyadakı yüksəkgərginlikli transformatorlardan istifadə elektrik enerjisinin paylanmasında israfçılığa səbəb olurdu. Rayonda elektrik enerjisinə olan maksimum tələbat 4-5 meqavatdır. Eyni zamanda ərazidə pərakəndə formada çəkilən elektrik xətləri də enerjinin paylanmasında itkilərə yol verirdi. Bütün bu amillər nəzərə alınaraq ərazidə yeni yarımstansiyanın qurulmasına başlanılıb, elektrik verilişi xətləri dəyişdirilib, 25 və 10 meqavatlıq 2 transformator quraşdırılıb. Bu da Kəngərli rayonunun ərazisində elektrik enerjisi verilişinin keyfiyyətlə həyata keçirilməsinə imkan verəcəkdir.

Enerji təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, muxtar respublikamızda strateji məhsul sayılan taxıl məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi məqsədilə də kompleks tədbirlər həyata keçirilir. "Kənd təsərrüfatı ili"ndə muxtar respublikada aqrar sahədə görülən tədbirlərin əhatə dairəsi xeyli genişləndirilib. Yeni texnikaların gətirilməsi, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, əkin zamanı keyfiyyətli və məhsuldar toxum sortlarından istifadə edilməsi, məhsuldarlığın yüksəldilməsi üçün aqrotexniki tədbirlərin aparılması hesabına hər il bir öncəki ilə görə daha çox taxıl məhsulu əldə olunur. Bu il də əsas ərzaq məhsulu olan taxıl əkini sahələrinin artırılması istiqamətində işlər aparılıb, 2015-ci ilin məhsulu üçün 36 min hektardan artıq sahədə taxıl əkilib. Əkin zamanı keyfiyyətli və məhsuldar toxum sortlarından istifadə edilib, sahələrdə vaxtlı-vaxtında suvarma və aqrotexniki qulluq işləri görülüb. Hazırda muxtar respublikada taxıl biçini həyata keçirilir.

İyunun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Bərəkət" Toxumçuluq Təsərrüfatının Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsinə gəlib, taxıl biçininin gedişi ilə maraqlanıb.

Bu gün sənayedə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların tətbiqinin təşviq edilməsi əsas vəzifə kimi qarşımızda dayanır. Suvarma və əkin üsullarının, qabaqcıl təcrübənin kənd təsərrüfatında tətbiqinə diqqət göstərilməsi ümumi daxili məhsul istehsalında kənd təsərrüfatının payının artırılmasına əsaslı təsir göstərir. Böyükdüz kəndi ərazisində yeni suvarma sistemlərinin qurulması və ərazidə meliorativ tədbirlərin görülməsi də bu amala xidmət edir. Bunun hesabına uzun müddət əkilməyən torpaq sahələri əkin dövriyyəsinə qatılıb.

Muxtar respublikada torpaq sahələrinin su təminatının yaxşılaşdırılması və rentabelli suvarma şəbəkələrinin qurulması istiqamətində həyata keçirilən tədbirlər bu gün də davam etdirilir. Hazırda Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində vaxtilə mövcud olmuş yeraltı suvarma şəbəkəsi bərpa olunur. İyunun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yeraltı suvarma şəbəkəsinə baxıb.

Bu gün muxtar respublikamızda gələcəyimiz olan uşaqlar diqqət və qayğı ilə əhatə olunublar. Bunun nəticəsidir ki, muxtar respublikada yerləşən uşaq bağçaları müasir binalarda fəaliyyət göstərir. Uşaq bağçaları isə təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun şəkildə, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixoloji inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir. Bu baxımdan Şahbuz Şəhər Uşaq bağçası üçün yeni bina inşa olunması bağçanın barı olan uşaqların gələcəyinin təmini baxımından əhəmiyyətlidir.

İyunun 25-də açılışı olan Şahbuz Şəhər Uşaq bağçası son illər muxtar respublikada istifadəyə verilən 17-ci məktəbəqədər təhsil müəssisəsidir. Burada 13 qrupda 242 uşaq təlim-tərbiyə alır. Bu da uşaqların gələcək məktəb illərində çətinlik çəkmədən təhsillərini davam etdirməsinə imkan verəcəkdir.

Dövlət atributlarına hörmət və ehtiram ulu öndər Heydər Əliyevin xalqımıza ən böyük əmanətidir. Bu gün müstəqil Azərbaycanın üçrəngli bayrağına ölkəmizdə və muxtar respublikada xüsusi ehtiramla yanaşılır. Bu sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq Şahbuz şəhərində Bayraq Meydanı inşa olunur. İyunun 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Bayraq Meydanının inşa olunacağı əraziyə baxıb.

***Şahbuz şəhərində dalğalanacaq üçrəngli bayrağımız milli vəhdətimizin rəmzi, müstəqilliyimizin və tərəqqimizin ulduzu kimi daim parlayacaq, intibahın Naxçıvan nümunəsinin növbəti əsəri kimi gələcək nəsillərə ərməğan qalacaqdır.***

**Rauf ƏLİYEV**

*Muxtar respublikamızın iri kənd yaşayış məntəqələrindən bəhs etdiyimiz "Şəhərləşən kəndlərimiz" rubrikasında növbəti yazımızda Cəhri kəndinin tarixi və onun simasına şəhər gözəlliyi gətirən müasir intibahı haqqında danışacağıq. Naxçıvanın əhalisi 5 min nəfərdən çox olan müxtəlif kəndləri haqqında bəhs olunan bu rubrikada bölgənin iri yaşayış məntəqəsi kimi Cəhrinin qovuşduğu şəhər mədəniyyəti barədə oxuculara məlumat vermək məqsədilə Cəhriçay istiqamətində yola çıxdıq.*

*Şəhərləşən kəndlərimiz*

# Cəhri



Cəhri kəndi Cəhriçay vadisi boyunca və Naxçıvan-Şahbuz-Batabat avtomobil yolu üzərində Naxçıvan şəhərindən 16 kilometr, rayon mərkəzi Babək qəsəbəsindən 25 kilometr aralı məsafədə yerləşir. Əhalisi 10 min 500 nəfərdən çox olan bu kənd çox geniş bir əraziyə, təqribən, 386 hektar sahəyə yayılmışdır. Ümumiyyətlə isə Cəhrinin 9580 hektara çatan ümumi torpaq sahəsi vardır.

Əvvəlcə qeyd edək ki, Cəhri kəndi hazırda təkcə Babək rayonunun deyil, bütövlükdə muxtar respublikanın iri kənd yaşayış məntəqələrindən biridir. Oxucularımıza Cəhrinin tarixi, onun adının etimologiyası, tarixi mənbələrdə Cəhri haqqında rast gəlinən məlumatlar maraqlı olardı. Bu məqsədlə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Cəhri kənd sakini Fəxrəddin Səfərliyə müraciət etdik. Alim şəhərləşən kənd olan Cəhrinin tarixi haqqında qiymətli məlumatlar verdi. Sözsüz ki, qədim şəhər mədəniyyətinə sahib olan bir yaşayış məntəqəsinin tarixini bilmədən onun bugünkü inkişafına nəzər salmaq çətin olardı.

Fəxrəddin Səfərlinin dediyinə görə, Cəhri toponimi hələlik tam dəqiq izah olunmasa da, bəzi tədqiqatçıların fikrincə, o, qədim türk sözü olan "Çağrı", yəni "Şahin" sözündən törənmişdir. Kəndin ərazisində yerləşən və indiyə qədər qalıqları qalan İşıqlar, Kəndtəpə, Uzuntəpə, Qoşatəpə, Qaracalar, Əyriarx və sair yaşayış yerlərində insanların erkən çağlardan məskunlaşması Cəhri kəndinin qədim tarixindən xəbər verir. Rəvayətə görə, İşıqlar yaşayış məskəni orta əsrlərdə yadelli hücumlar nəticəsində dağıldığı üçün əhalisinin bir hissəsi indiki Cəhri kəndində məskunlaşmış, qalanı isə Qərbi Azərbaycanın Sisian bölgəsinə köçərək orada eyniadlı (İşıqlar) yaşayış məskəni salmışdır. İndiki Cəhridə bu günədək yaşayan qədim məhəllə adları olan Cilovxanlı, Salahlı, kəndin şərq tərəfində yerləşən qəbiristanlıqda indiyə qədər qalan daş qoç fiqurutipli qəbirüstü abidələr onun qədim tarixindən xəbər verir. Buranın əhalisi qədim zamanlardan Naxçıvanda məskunlaşmış Kəngərli tayfasının "Yurdçu" qoluna mənsubdur. İndiki Cəhri kəndinin ərazisində şəhər böyüklüyündə bir yaşayış məntəqəsi olmuşdur.

Cəhri kəndinin tarixi haqqında bu kəndin yetirməsi, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadənin "Cəhriçay vadisi" kitabında da maraqlı məlumatlar vardır. Alimin apardığı tədqiqatlardan məlum olur ki, Cəhri və Cəhriçay vadisi, ümumilikdə, Naxçıvan bölgəsinin ən qədim yaşayış məskənlərindən biridir. Bura insanların keçirdiyi oturaq həyat tərzi, qədim sənətkarlıq, mühüm karvan yollarının keçdiyi ticarət yerlərindən biri olmuşdur. Ciddi strateji əhəmiyyət kəsb etməklə bu bölgədə möhtəşəm müdafiə qalaları tikilmiş, qala şəhərlər mövcud olmuşdur.

Qədim şəhər mədəniyyətinə malik Cəhridə təkcə kankanlıq sənətinin çox qədim tarixi vardır. Cəhri qədimdə sənətkarlıq baxımından xeyli inkişaf etmişdir. Eneolit, Tunc və sonrakı dövrlərə aid aşkar edilmiş keramika məmulatları, ocaqlar və digər məişət əşyaları, kürələr, emalatxana qalıqları regionda dulusçuluğun güclü inkişaf etdiyini söyləməyə imkan verir. Qədim Naxçıvanın bir çox yerlərində olduğu kimi, bu kənddə də müqəddəs məkanlar çoxdur. Cəhrinin inanc yerlərindən Qaş piri çox məşhurdur. Xalq arasında və mənbələrdə İsfəndiyar Zaviyəsi (piri) kimi tanınan ziyarətgah Cəhri kəndinin qərbində "Qaş" adlanan dağ silsiləsinin ətəyindədir. Cəhri kəndindən, təxminən, 2 kilometr qərb tərəfdə, dağlıq ərazidə yerləşən bu sufi mərkəzi orta əsrlərdən tanınır.

Tarixin sonrakı dövrlərində də Cəhrinin inkişaf etmiş bir yaşayış məntəqəsi olduğunu görürük. Hələ 1727-ci ildə tərtib olunan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndən məlum olur ki, Cəhridə dəyirmanlar, çox geniş ərazilərdə üzüm bağları olmuşdur.

Cəhri kəndi bu gün özünün intibah dövrünü yaşayır. Cəhridə tarixi keçmişdən gələn milli dəyərlərimiz müasir inkişafla qucaqlaşdıqca tamam yeni bir mənzərə ortaya çıxır. Kəndə gəlmiş qonağa xüsusi ehtiramı ilə seçilən, ağsaqqallarının bir sözünün iki olmadığı Cəhridə yeni nəslin hərtərəfli inkişaf etdiyini hamı bilir. 1941-1945-ci illər müharibəsində qəhrəmanlıq göstərmiş Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Əkbərov, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş 5 nəfər şəhid cəhrililərin fəxridir. Bu kəndin yetirmələri – iki nəfər AMEA-nın müxbir üzvü, 50-yə yaxın elmlər və fəlsəfə doktorları, Milli Məclisin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları haqqında burada həvəslə danışırlar.

Müasir Cəhri sürətlə böyüməkdədir. Evlərinin sayı 1600-dən yuxarı olan Cəhridə yeni təsərrüfatlar yarandıqca kənd iki istiqamətdə – şimal və cənub istiqamətlərində genişlənməkdədir. Kənddə olarkən öyrəndik ki, burada villatipli evlərin sayı da durmadan artır. Hazırda kənddə 50-dən artıq belə ev vardır. Kənd böyüdükcə o, qonşudakı nisbətən kiçik Payız və Gülşənabad kəndləri üçün də cazibə mərkəzinə çevrilir.

Cəhrililər təsərrüfata, torpağa sıx bağlı insanlardır. Hələ qədimdən burada suvarma əkinçiliyi mədəniyyəti formalaşmışdır. Kənd icra nümayəndəsi Çingiz Tahirovun dediyinə görə, Cəhridə 1254 hektar əkilən sahənin hamısı suvarılan torpaqlardır. Kənddən keçən çay və Heydər Əliyev Su Anbarından çəkilmiş kanal bu torpaqların əsl həyat mənbəyidir. Cəhri kələmini Naxçıvan bazarında hamı yaxşı tanıyır. Kənddə 930 hektara yaxın sahədə taxıl əkilmişdir. Bundan əlavə, Cəhridə bağçılıq və tərəvəzçilik də geniş yayılmışdır. Heyvandarlığa gəldikdə isə hazırda kənddə 1600 baş iribuynuzlu, 20 min başdan çox xırdabuynuzlu heyvan bəslənildiyini bildirdilər. Cəhridə arıçılıq da inkişaf etdirilir. 1300-ə yaxın arı ailəsindən bu yerlərin çiçəyinə xas ətirli bal əldə olunur.

*Muxtar respublikamızda geniş vüsət almış müasir intibah Cəhriyə şəhər görkəmi qazandırmış, onu abad bir yaşayış məntəqəsinə çevirmişdir.*

*(Ardı var)*

*(Ardı var)*

**Əli CABBAROV**

---

*İstehsal müəssisələri*

## Keyfiyyətli məhsul, nümunəvi xidmət

### *Söhbət Gəmiqaya Bərəkət Ət Məhsulları Kompleksindən gedir*



***Yolumuz Babək rayonunda fəaliyyət göstərən Gəmiqaya Bərəkət Ət Məhsulları Kompleksinədir. Qeyd etməliyəm ki, 3 ildir, yaradılan kompleksin məhsulları keyfiyyətinə görə özünə çoxlu alıcı qüvvəsi toplayıb. İstehsal müəssisələri arasında nümunəvi fəaliyyəti ilə seçilən kompleksin iş rejimi, istehsal prosesi ilə oxucularımızı tanış etmək üçün həmin ünvana üz tutduq.***

Həftənin bazar ertəsi günü idi. Elə həmin gün kompleksdə ət kəsimi həyata keçirilirdi. Öyrəndik ki, istehsal müəssisəsində ət kəsimi həftənin bazar ertəsi və cümə axşamı günləri olur. Biz kompleksə çatanda baytar həkimi Cəlil Əhmədəliyev kəsiləcək heyvanı son dəfə baytarlıq müayinəsindən keçirirdi. İş başında söhbətə başladıq. Dedi ki, muxtar respublikanın ayrı-ayrı bölgələrində yaşayan əhalidən mövcud bazar qiymətlərinə müvafiq olaraq iribuynuzlu və xırdabuynuzlu heyvanlar alınaraq istehsala cəlb edilir. Sonra əlavə edir: – Bazar hər bir ölkənin mədəniyyət göstəriciləri sırasına daxil olan sahələrdən biridir. Üstəgəl ki, burada söhbət insan sağlamlığında başlıca rol oynayan qiymətli ərzaq məhsulu satılan istehsal müəssisələrindən gedir. Keyfiyyətli ət məhsulları ilə təminat insanların sağlamlığının qorunmasına xidmət edir. Bir baytar həkimi kimi bunlara çox diqqət edirəm. Çünki əgər həkim insanların sağlamlığı keşiyində durursa, baytar cəmiyyətin sağlamlığını qoruyur.

Söhbətimizi qəssablarla davam etdiririk. Kompleksdə beş qəssab çalışır. Oxuculara maraqlı ola bilər ki, bu böyük kompleksdə 5 qəssab az deyil? Qeyd edim ki, ət kəsimi qəssabların köməkliyi ilə texniki avadanlıq vasitəsilə həyata keçirilir. Burada istehsal avadanlıqları standartlara cavab verən ən müasir qurğularla təchiz olunub. Avtomatik iribuynuzlu kəsim aparatı, xırdabuynuzlular üçün qaldırıcı qarmaqlı kəsim bölməsi, kəsilən malların asqılı və döngülü qarmaq sistemi, iribuynuzlu heyvanları boydan-boya ikiyə bölmək üçün mişar və digər qurğular iş prosesini xeyli yüngülləşdirir.

Kompleksdə çalışan Zaur Rzayevlə söhbətləşirəm:

– Şərur rayonunun Xələc kəndində yaşayıram. Əvvəllər öz kəndimizdə qəssab kimi fəaliyyət göstərirdim. Bu kompleks istifadəyə verildikdən sonra burada işə başladım. Əvvəllər pərakəndə fəaliyyət göstərirdim. İndi daimi iş yerim var. Vaxtlı-vaxtında maaşımızı alırıq. Müəssisənin istehsal avadanlıqları tam müasirdir və istehsal bölməsində, demək olar ki, işin 80 faizi avtomatlaşdırılmış sistemlə həyata keçirilir. Odur ki, çox yorulmuruq. Kəndə qayıtdıqdan sonra kənd təsərrüfatı işləri ilə məşğul oluram. Özümün də mal-qaram var. Şükür ki, bir gənc ailə olaraq firavan həyat sürürük.

Qəssablardan ən gənci – Babək rayonundan olan 1993-cü il təvəllüdlü Mirəbdül Seyidov ələcləri geyinir. Ona yaxınlaşıram. Diqqətimi çəkən önlük olur. Öyrəndim ki, bu önlüklər setkalıdır. Aparatdan gələcək hər hansı bir təhlükənin qarşısını almaq üçündür. Ət kəsimi başa çatdıqdan sonra Şərur rayonunun Aralıq kəndindən olan qəssab Kamal Məmmədov müxtəlif proseslərdən sonra ətin yuyulması üçün aparatı işə salır. İşini çox sevir. Ona işində uğurlar arzulayıb kolbasa sexinə keçirik. Gündəlik istehsal gücü 2 ton olan sexdə qadın işçilər çoxluq təşkil edir. Onlara yaxınlaşıb həmsöhbət oluram. Məlahət Novruzova kolbasa istehsalında bəlli qarışıqları bir arada istehsala hazırlayan aparatı işə salır. Onun dedikləri də maraqlıdır:



– Uzun illərdir ki, bu sahədə çalışıram. Müxtəlif kolbasa sexlərində fəaliyyət göstərmişəm. Əvvəllər çox əziyyət çəkirdik. İndi müasir istehsal sahələrinin yaradılması bizim də işimizi yüngülləşdirib. Müasir avadanlıqlardan istifadə edirik. Gördüyünüz hər bir iş avadanlıqlar vasitəsilə həyata keçirilir. Qeyd edim ki, peşəkarlıq səviyyəmizin artırılması üçün kurslarda iştirak edirik.

Kompleksin müdiri Məmmədəmin Çəlik bizi burada istehsal olunan kolbasa və sosiskalar üçün soba, böyük soyuducular, kompüter və yardımçı təchizat qurğuları ilə tanış edir. Bildirir ki, müəssisədə gün ərzində 100 baş iribuynuzlu mal-qaranın və 250 baş xırdabuynuzlu heyvanların kəsimini həyata keçirmək mümkündür. Burada müxtəlif dondurma temperaturuna malik olan 8 soyuducu kamera yaradılıb, məhsulların ticarət mərkəzlərinə çatdırılması məqsədilə 2 ədəd soyuducu yük yeri olan nəqliyyat vasitəsi alınıb. Müəssisədə iri doğranmış, paketlənmiş, çəkilmiş, eləcə də yarımfabrikat paketlənmiş ət məhsulları istehsal olunur. İstifadə edilən xammalın mütəmadi olaraq baytar və laborator müayinədən keçirilməsi keyfiyyətli kolbasa istehsalına imkan verir.

Muxtar respublikada belə bir kompleksin fəaliyyət göstərməsi böyük əhəmiyyətə malikdir. Çünki bu müəssisənin fəaliyyətə başlaması yeni iş yerlərinin yaradılmasına imkan verib. Belə ki, müəssisədə 40 nəfər fəaliyyət göstərir. Onlardan 19 nəfər ət kəsim və saxlama bölməsində, 19 nəfər kolbasa istehsal sexində, 2 nəfər isə satış mağazasında çalışır. Həmsöhbət olduğum Naxçıvan şəhərindən Rəsmiyyə Novruzova, Babək rayonunun Nehrəm kəndindən olan Elşən Abuzərov, Ramin Əliyev və başqaları kompleksdə işlə təmin edildikləri üçün minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, əgər dövlətimiz sahibkarlığın inkişafına yüksək qayğı göstərməsəydi, belə istehsal müəssisələri yaradıla, yeni iş yerləri açıla bilməzdi.

Kompleksdən ayrılarkən satış mağazasına da baş çəkdik. Adil Bədəlov ət məhsullarını paketləyərək alıcıya təqdim edir. Alıcı Vahid İsmayılovu həmsöhbət seçirəm. O deyir:

– Bilirsiniz, Naxçıvan kolbasası Bakı şəhərinə və ölkəmizin digər bölgələrinə də aparılır. Bir neçə qohumum Bakıda yaşayır. Müntəzəm olaraq onlara Naxçıvan kolbasası alıb göndərirəm. Həmişə razılıq edirlər. Bu mağazanı seçmişəm. Çünki həm məhsullar keyfiyyətlidir, həm də xidmət yüksək səviyyədədir.

Digər alıcı İlham Novruzov isə deyir ki, həmişə buradan hazır paketlənmiş ət məhsulları alır. Əlavə edir ki, 20 il bundan əvvəl Naxçıvan Muxtar Respublikasında ticarət sahəsində yaranan pərakəndəlikdən çox əziyyət çəkib. İndi bilirik ki, burada gigiyenik qaydalara əməl edilir və keyfiyyətli məhsul istehsal olunur.

*İnanırıq ki, müəssisə bundan sonra da daxili bazarı yüksəkkeyfiyyətli ət və ət məhsulları ilə təmin edəcək.*

**Sara ƏZİMOVA**

# Tibbi müayinə kartı sisteminin tətbiqində yeni mərhələ

***"Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 iyul 2011-ci il tarixli Fərmanına uyğun olaraq, səhiyyə sistemində də elektron xidmətlərin göstərilməsi diqqət mərkəzində saxlanılır. Ötən müddətdə informasiya texnologiyaları infrastrukturunun inkişaf etdirilməsi, elektron proqramların tətbiqi işi prioritet məsələlərdən olmuşdur.***

Hazırda nazirliyin rəsmi internet saytı vasitəsilə müxtəlif elektron xidmətlər üzrə fəaliyyət təmin olunaraq "Elektron hökumət" portalına qoşulub. İnternet səhifəsi yenilənib, nazirliyin **info.sehiyye@nakhchivan.az** ünvanına göndərilmiş sorğuların və onlara verilən cavabların müraciət edənlər tərəfindən onlayn izlənilməsi təmin olunub. İmtahan test sualları, obliqat qruplarının müayinəsi, uşaq sağlamlıq kartları, statistik məlumatlar muxtar respublikada yaradılmış lokal səhiyyə şəbəkəsinə ötürülür.

İndi belə tədbirlər dövlət proqramlarından biri olan tibbi müayinə kartı sisteminin yaradılması və tətbiqi ilə davam etdirilir. Tibbi müayinə kartı sisteminin tətbiqi Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 21 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 7.3.10 bəndinə əsasən həyata keçirilir.

Tibbi müayinə kartının tətbiqi ilə bağlı Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Sona Məmmədova ilə həmsöhbət olub bir sıra suallarımıza cavab aldıq.

***– Tibbi müayinə kartı nədir və onun tətbiqində məqsəd nədən ibarətdir?***

– Müxtəlif sahələrdə çalışan, işə daxil olarkən və ya sonradan dövri tibbi müayinədən keçməsi tələb olunan vətəndaşların (obliqat qrupların) vaxtlı-vaxtında müayinədən keçmələrinə nəzarətin təkmilləşdirilməsi məqsədilə yaradılan tibbi müayinə kartı sistemi nazirlik tərəfindən müəyyən edilən tibbi məlumatları özündə saxlayan elektron informasiya sistemidir. Həyata keçirilən sistemin məqsədi müayinə prosesinin nəticələri üzrə vahid mərkəzləşdirilmiş və lokal məlumat bazalarının yaradılması və bununla da, prosesdə iştirak edən qurumlar arasında məlumat mübadiləsinin səmərəliliyinin artırılması, gigiyena və epidemiologiya mərkəzləri (GEM) və poliklinikalar tərəfindən prosesə nəzarətin gücləndirilməsidir.

Tibbi müayinə kartı sisteminin yaradılması və tətbiqinə 2009-cu ildən başlansa da, indi bu məsələ daha da aktuallaşıb. O zaman kartların tətbiqi epizodik xarakter daşıyırdısa, indi kütləvi hal almaqla yeni mərhələyə qədəm qoyub.

Əhalinin sağlamlığının təmin olunması, infeksion və parazitar xəstəliklərin yayılmasına yol verilməməsi üçün obliqat qruplara aid edilən şəxslər mütləq həm işə daxil olanda, həm də sonralar dövri olaraq tibbi müayinələrdən keçməlidirlər. Bu işlərin, tibbi müayinələrdə iştirak edən ixtisaslı həkimlərin, işin növünə görə lazımi laborator və funksional-diaqnostik müayinələrin, həmin işə qəbul edilmək üçün tibbi əks-göstərişlərin siyahısı təsdiq edilib.

Obliqat qrupların müayinədən keçmələri barədə məlumatlar Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilən adi kitabça şəkilli tibbi müayinə kartlarında cəmləşdirilirdisə, yeni sistemin tətbiqi ilə əlaqədar həmin kartlar artıq mikroprosessorlu çip ilə təchiz olunmuş plastik kartlarla əvəz ediləcək. Yeni kartların üzərində və çiplərində vətəndaşa aid məlumatlarla yanaşı, onun ilkin və dövri tibbi müayinədən keçməsi barədə məlumatlar da yerləşdirilir. Kartlarda yer alan müayinələr barədə məlumatlar müayinələrin keçirildiyi tibb müəssisələrində kompüterlərə qoşulmuş kartoxuyucu qurğular vasitəsilə oxuna və dəyişdirilə bilər. Tibbi müayinə kartı sistemi mərkəzi informasiya bazasından və müvafiq tibb müəssisələrində qurulmuş proqram təminatlarından, müəssisələrin personal kompüterinə qoşulmuş xüsusi oxuyucu qurğulardan və elektron kartlardan ibarətdir.

***– Bəs vətəndaşlar elektron kart almaq üçün hara müraciət etməlidirlər?***

– Obliqat qrupların müayinəsi prosesinin əsas iştirakçıları obliqat qrupa daxil olan şəxs, həmin şəxsin işlədiyi müəssisə, müəssisənin fəaliyyət rayonu üzrə müvafiq poliklinika və Gigiyena və Epidemiologiya Mərkəzidir. Göstərilən tərəflərin hər birinin obliqat qrupların müayinəsi üzrə müəyyən funksiyaları və öhdəlikləri vardır. Müayinədən keçəcək hər bir şəxs kartın alınması üçün qeydiyyatda olduğu GEM-ə müraciət edir. GEM, öz növbəsində, kartları sifariş edir. Müayinə kartları vətəndaşlara ondan istifadə qaydası ilə tanış edilməklə verilir. Tibbi müayinə kartının alınması üçün vətəndaşlar xidmət haqqı ödəməlidirlər. Tibbi müayinə kartı vətəndaşların özündə qalır. Tibbi müayinə kabinetlərində müəssisənin rəhbəri tərəfindən tibbi müayinə kartı sistemi ilə işləmək hüququ verilən əməkdaş proqrama daxil olaraq kart sahibinin kartında əməliyyatlar aparır. Aparılan bütün əməliyyatlar haqqında məlumat proqramda qeyd olunur. Gün ərzində aparılan əməliyyatlar elektron şəkildə informasiya mərkəzinə göndərilir. Obliqat qrupların sağlamlıq vəziyyətinin qeydiyyatının aparılması məqsədilə informasiya mərkəzində sistemin elektron registrinin bankı yaradılır. Eyni zamanda müayinələrin nəticələri barədə məlumatlar obliqat qruplara verilən elektron tibbi müayinə kartlarında da saxlanılır. Obliqat qrupların tibbi müayinələri zamanı ortaya çıxan yeni məlumatlar sistemə, o cümlədən tibbi müayinə kartına əlavə edilir.

Tibbi müayinə kartı vətəndaşların özündə qalır. Vətəndaş müayinə kartının itməsi, oğurlanması və ya digər səbəblərdən istifadəyə yararlı olmaması barədə dərhal tibbi müayinə kartını aldığı müəssisəyə yazılı surətdə məlumat verməlidir. Tibbi müayinə kartının itməsi və ya istifadəyə yararsız hala düşməsi halında vətəndaş yeni kart almaq üçün GEM-ə müraciət edir. Məlumat sistemə daxil edildiyi zaman köhnə kart bloklanır və yeni kartın hazırlanması prosesinə başlanılır. Yeni kartın verilməsi prosesi eynilə ilkin kartın verilməsi kimi həyata keçirilir.

***– Lokal sistemə ötürülən məlumatın məxfiliyinə təminat verilirmi?***

– Qanunvericilikdə sistemdən və kartlardan qeyri-qanuni istifadəyə görə məsuliyyət nəzərdə tutulur. Vətəndaşın tibbi müayinədən keçməsi, müayinə və müalicə vaxtı əldə edilən digər informasiyalar məlumat sirridir. Vətəndaşın vərəsəyi məlumatın gizli saxlanılması haqqında ona zəmanət verilir. Müəssisələr tərəfindən vətəndaşların sağlamlıq və müayinə nəticələrinə aid məlumatların məxfiliyi təmin edilir. Kartda olan məlumatlar vətəndaşların razılığı ilə və ya qanunvericiliklə nəzərdə tutulmuş hallarda açıqlana bilər. Sistemlə işləyən əməkdaşlar tərəfindən sistemdə və ya müayinə kartında hər hansı məlumatın dəyişdirilməsi baş həkimin təsdiqlədiyi ərizə əsasında aparılır. "Elektron Səhiyyə" ***(e-sehiyye.gov.az)*** internet portalı vasitəsilə elektron tibbi müayinə kartı sistemindəki unikal kodunu bilən vətəndaş (unikal kod kartın üzərində qeyd olunub) özü barədə sistemdə qeyd olunan bütün məlumatları internet üzərindən əldə edə bilər. Bununla yanaşı, vətəndaşın fəaliyyət göstərdiyi müəssisənin məsul şəxsləri də internet üzərindən öz müəssisələrində işləyən vətəndaşların müayinədən keçmə statusuna internet üzərindən nəzarət edə bilərlər. Bunun üçün vətəndaş, yaxud müəssisənin səlahiyyətli şəxsi portalda bir dəfə qeydiyyat etməlidir.

***– Hazırda iş prosesi nədən ibarətdir?***

– Hazırda sistemin iştirakçıları olan GEM-də obliqat qrupların ilkin qeydiyyatı aparılır və məlumatlar sistemə daxil edilir. Kartın verilməsi üçün anketlər əsasında həmin kartlar hazırlanacaq, onları sifariş etmiş poliklinika və rayon mərkəzi xəstəxanaları vasitəsilə sahiblərinə çatdırılacaqdır. Müayinə kartları vətəndaşlara ondan istifadə qaydası ilə tanış edilməklə veriləcəkdir. Aparılan bütün əməliyyatlar haqqında məlumat proqramda qeyd olunacaqdır. Eyni zamanda müayinələrin nəticələri barədə məlumatlar obliqat qruplara verilən elektron tibbi müayinə kartlarında da saxlanılacaqdır. Obliqat qrupların tibbi müayinələri zamanı ortaya çıxan yeni məlumatlar sistemə, o cümlədən tibbi müayinə kartına əlavə ediləcəkdir.

**Hüseyn ƏSGƏROV**

## Növbəti ixtisasartırma kursu təşkil olunub

***Cari ilin ilk 6 ayı ərzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması və bu sahədə çalışan işçilərin biliklərinin artırılması məqsədilə 69 tikinti və istehsal müəssisəsinin mütəxəssisləri üçün ixtisasartırma kursları təşkil olunub.***

İyulun 6-dan təşkil edilən "Texniki təhlükəsizlik və əməyin mühafizəsi normaları, qaydaları və standartlarına əməl olunması" mövzusunda növbəti ixtisasartırma kursuna "Gəmiqaya Kərpic Kompleksi", "Naxçıvan Sement", "Cahan Motors", "Gəmiqaya Qida Məhsulları", "Gəmiqaya Plastmas Kapsul və Qapaq" Məhdud Məsuliyyətli cəmiyyətlərinin, "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağlar və Qızılvəng daş karxanalarının, ümumilikdə, 8 mütəxəssisi cəlb edilib.

7 iş günü davam edəcək kursda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən əməyin mühafizəsi üzrə işəgötürənin və işçilərin vəzifələri, iş yerlərinin əməyin mühafizəsi və təhlükəsizliyi normaları, qaydaları və prinsiplərinə uyğunlaşdırılması, işçilərin fərdi və kollektiv mühafizə vasitələri ilə təmin olunması və bu istiqamətdə daxili nəzarətin gücləndirilməsi, baş verə biləcək bədbəxt hadisələr və peşə xəstəliklərinin qarşısının alınmasına dair mövzular tədris olunur. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Səhiyyə Nazirliyinin, Dövlət Baş Sığorta Agentliyinin nümayəndələri tərəfindən iş sahəsində əməyin mühafizəsi və təhlükəsizlik tədbirlərinin görülməməsinə görə məsuliyyət, baş verən qəzalar zamanı zərərçəkənə ilk tibbi yardımın göstərilməsi, baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşəəmək qabiliyyətinin itirilməsi hallarından işçilərin icbari sığorta olunmasının zəruriliyi ilə bağlı bilgilər də verilir.

Yekunda kurs iştirakçılarının bu sahədə bilikləri yoxlanılacaq.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Azərbaycan Respublikasının Təhsil Nazirliyi

*Naxçıvan Dövlət Universiteti 2015-2016-cı tədris ilində aşağıdakı ixtisaslar üzrə əlavə ali təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir*

*1. Riyaziyyat və informatika müəllimliyi*
*2. Riyaziyyat müəllimliyi*
*3. İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi*
*4. İqtisadiyyat*
*5. Mühasibat uçotu və audit*
*6. Beynəlxalq münasibətlər*
*7. Tarix müəllimliyi*
*8. Azərbaycan dili və ədəbiyyat müəllimliyi*
*9. Hüquqşünaslıq*
*10. Xarici dil müəllimliyi (ingilis dili)*
*11. İbtidai sinif müəllimliyi*
*12. Musiqişünaslıq*
*13. Biologiya müəllimliyi*
*14. Kimya müəllimliyi.*

Əvvəlki ali təhsili və ya hazırda (1 ildən az olmayaraq) işlədiyi vəzifəsi seçdiyi ixtisasa uyğun gələn şəxslər müvafiq qaydaya əsasən uyğun ixtisaslar üzrə müsabiqədə iştirak edə bilərlər. Əlavə ali təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- rektorun adına ərizə;*
*- ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;*
*- 3x4 ölçüdə 6 ədəd fotoşəkil;*
*- əmək kitabçasının surəti;*
*- sağlamlıq haqqında arayış;*
*- şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.*

Sənədlər 2015-ci il iyul ayının 10-dan avqust ayının 10-dək hər gün (istirahət günlərindən başqa) saat $10^{00}$-dan $16^{00}$-dək Naxçıvan Dövlət Universitetində qəbul edilir. *(Əsas bina, 2-ci mərtəbə, 207 saylı otaq).*

Universitetə sənəd vermiş şəxslərlə müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müsabiqə yolu ilə əlavə ali təhsil üzrə tələbələr sırasına qəbul edilirlər. Təhsil haqqı müqavilə əsasında müvafiq ixtisaslar üzrə uyğun qaydada ödənilir.

***Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi, əsas bina, telefon: 545-45-59***

***Rektorluq***

*23 iyun-3 iyul tarixlərində Türkiyənin Konya şəhərində şahmat üzrə məktəblilər arasında Avropa çempionatı keçirilib.*

## Şahmatçımız Avropa çempionatında gümüş medal qazanıb

Qitə birinciliyində muxtar respublikanı Aynur Kətanova, Sadiq Məmmədov və Pərviz Qasımov təmsil ediblər. Ən uğurlu nəticəni isə 15 yaş qrupunda çıxış edən Pərviz Qasımov qazanıb. O, bu yaş qrupunda olan 52 şahmatçı arasında ikinci yerə çıxıb. 9 turdan ibarət olan Avropa çempionatında FİDE ustamız 6,5 xal toplayıb və liderdən yarım xal geri qalıb. Qazandığı bu uğurdan sonra Pərviz Qasımov Xorvatiyanın Porets şəhərində keçiriləcək Avropa çempionatına, həmçinin gələn il Tunisdə təşkil olunacaq şahmat üzrə məktəblilər arasında dünya çempionatına vəsiqəni təmin edib.

Konyada keçirilən Avropa çempionatının ikincisi olan idmançımıza təşkilatçılar tərəfindən diplom və medal təqdim olunub. Onu da qeyd edək ki, şahmat üzrə məktəblilər arasında keçirilən qitə birinciliyində beynəlxalq hakim Emin Hacıyev də ədalət təmsilçisi kimi iştirak edib.

Qəzetimizə açıqlamasında Avropa çempionatının gümüş mükafatçısı dedi: "Məqsədim qarşıdakı turnirlərə daha ciddi hazırlaşmaq və Naxçıvana uğurlarla qayıtmaqdır. Təbii ki, Konyada qazandığım uğurun arxasında daimi məşqlərlə yanaşı, göstərilən diqqət və qayğının da böyük rolu var".

**Ceyhun MƏMMƏDOV**

## İtmişdir

Məcnunov Əli Nadir oğlunun adına verilmiş AD-0016526 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Böyükdüz kəndində yaşamış Əliyev Yusif Mehdi oğlunun adına olan 236[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 533